# "Ağ qızıl" ölkəmizin qiymətli sərvətidir

**Möhtərəm cənab Prezident İlham Əliyevin dünya bazarında pambıq ehtiyatlarının azalması, tələbin isə artması və beləliklə də, qiymətlərin yüksəlməsi fonunda ölkəmizdə qədim ənənəyə malik pambıqçılığın inkişaf etdirilməsi məqsədi ilə verdiyi qəti tapşırıqların icrası uğurla davam etdirilir.**

Bunun da hesabına 2017-ci ildə 207.2 min ton, ötən illə müqayisədə 2.3 dəfə çox məhsul istehsal edilmişdir ki, bu da ölkəyə valyuta daxilolmalarını, eləcə də kənd əhalisinin gəlir əldə etmək imkanlarını artırmaqla yanaşı, bölgələrdə məşğulluq probleminin həllinə mühüm töhfə vermişdi. Pambıqçılıqla bağlı çox ciddi addımlar atılıb, bu sahə prioritet sahə kimi qalacaq və burada ən qabaqcıl texnologiyalar tətbiq edilməlidir.

Ulu öndərimiz pambıqçılıqla bağlı danışarkən demişdir ki, "Ağ qızıl" respublikamızın sərvətidir, pambıqçılıqda əldə olunan nailiyyətlər xalqın firavanlığı, şərəfi və şöhrəti deməkdir. Cənab Prezident İlham Əliyev də qeyd etmişdir ki, pambıq strateji, ölkəyə valyuta gətirən məhsul olmaqla yanaşı, ümumən pambıqçılıq əhalinin həyat səviyyəsinin yüksəlməsinə və insanların işə cəlb edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərən sahədir. Pambıqçılıq özündə bir çox önəmli amilləri birləşdirir. Bu, kənd təsərrüfatının sürətli inkişafı, yüz minlərlə iş yerinin yaradılması, ixrac potensialımızın inkişafı deməkdir və dövlətin özəl sektora praktiki diqqətinin, dəstəyinin təzahürüdür.

Uzun illər pambıqçılıqla məşğul olan və bu sahədə bir sıra uğurlar əldə edən Ağsu rayonunda bir müddət arxa planda qalmış pambıqçılıq indi yenidən dirçəlməkdədir. Pambıqçılığın insanların sosial həyatında nə qədər böyük rol oynadığını dönə-dönə bildirən ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 1970-ci illərdə bu sahənin inkişafına böyük önəm verir, pambığı neftlə müqayisə edərək "neft qara qızıldırsa, pambıq ağ qızıldır" deyirdi. Həmin dövrlərdə pambıqçılığa Ağsu rayonunda da xüsusi diqqət artırılmış və nəticədə 1980-ci ildə 7 min hektar sahədən 17.219 ton, 1981-ci ildə isə 5 min hektar sahədən hər hektardan 34.4 sentner hesabı ilə 17.227 ton məhsul toplanaraq təhvil verilmişdir.

2017-ci ildə Ağsu rayonunda 2500.0 hektar pambıq əkilmişdir. Əkilən pambığın 1610.0 hektarı Ucar Pambıq Zavodu tərəfindən, 890.0 hektarı isə "Ağsu Kənd Təsərrüfatı MMC" tərəfindən əkilmişdir. 2017-ci ildə sahələrdən 2807.2 ton pambıq yığılaraq təhvil verilmişdir. Toplanmış məhsulun 1690.2 tonu Ucar Pambıq Zavoduna, 1117.0 tonu "Ağsu Kənd Təsərrüfatı MMC" nəzdində fəaliyyət göstərən məntəqəyə təhvil verilmişdir. 2017-ci ildə 2016-cı illə müqayisədə 2.7 dəfə çox pambıq yığılmışdır. İstehsal olunan məhsula görə pambıqçılara 280.7 min manat subsidiya veriləcək.

Keçən il rayonda pambıqçılığın inkişafı hesabına 5 mindən çox sakinimiz işlə təmin edilib. Möhtərəm cənab Prezident İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının 4-cü ilinin yekunlarına həsr olunan konfransda pambıqçılığı intensiv yollarla inkişaf etdirməklə bağlı söylədiyi fikirlər bizim üçün əsas istiqamət olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bitkiçilikdə intensiv inkişafın təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" imzaladığı Sərəncamla istehsalçılara satılan mineral gübrələrin əkin sahələrinin hər hektarına görə satış qiymətinə tətbiq edilən güzəştin 50 faiz, pestisidlərin satış qiymətinə tətbiq edilən güzəştin məbləğinin isə 5 dəfə artırılması fermerlərin ürəyincə olub.

Pambıqçılıqda intensiv inkişafa nail olunmasında keyfiyyətli toxum, gübrə və pestisidlərlə təminat, texnikaya olan tələbatın ödənilməsi, suvarma məsələləri həlledici rol oynayır. Bununla bağlı hər bir fermerə lazımi şərait yaradılmalıdır. Fermerlər hələ, də bir sıra problemlərlə rastlaşırlar. Ötən il pambıq bitkisində ziyanvericilərə qarşı mübarizə üçün tətbiq edilən pestisidlərin keyfiyyətinin bəzi hallarda aşağı olması fermerlərimizə daha yüksək nəticələr əldə etməyə imkan verməyib. Pestisidlərin, mineral gübrələrin keyfiyyətinin aşağı olması, bununla belə, onların dəyərinə tətbiq edilən güzəştlərin yuxarı həddinin az olması pambıq istehsalçılarına xeyli ziyan vurub. Fermerlər tərəfindən ziyanvericilərə qarşı mübarizə aparmaq üçün 2-3 dəfə dərman vurulmasına baxmayaraq, onların təsiri çox az olub. Rayon Kənd Təsərrüfatı İdarəsinin mütəxəssisləri tez-tez yerlərdə olub, pambıq əkən sahibkarlara mütəmadi olaraq köməkliklər göstəriblər.



2017-ci il üçün rayon üzrə pambıq əkilmiş 2500.0 ha sahədən 300 hektarı Ərəbmehdibəy kənd inzibati ərazi dairəsinin, 330 hektarı Çaparlı kənd inzibati ərazi dairəsinin, 321 hektarı Bozavand kənd inzibati ərazi dairəsinin, 262 hektarı Ərəbuşağı kənd inzibati ərazi dairəsinin, 170 hektarı Xəlilli kənd inzibati ərazi dairəsinin, 73 hektarı Gəgəli kənd inzibati ərazi dairəsinin, 31.5 hektarı Ərəbsarvan kənd inzibati ərazi dairəsinin, 270 hektarı Kəndoba kənd inzibati ərazi dairəsinin, 253.5 hektarı Qaraqoyunlu kənd inzibati ərazi dairəsinin, 37 hektarı Padar kənd inzibati ərazi dairəsinin, 40 hektarı Növcü kənd inzibati ərazi dairəsinin, 25 hektarı Çiyni kənd inzibati ərazi dairəsinin, 25 hektarı Daşdəmirbəyli kənd inzibati ərazi dairəsinin, 260 hektarı Rəhimli kənd inzibati ərazi dairəsinin, 30 hektarı Muradlı kənd inzibati ərazi dairəsinin, 30 hektarı Bico kənd inzibati ərazi dairəsinin, 35 hektarı Qəşəd kənd inzibati ərazi dairəsinin, 7 hektarı Ləngəbiz kənd inzibati ərazi dairəsinin ərazisində yerləşir.

2018-ci il üçün rayon üzrə 2600.0 ha sahədə pambıq əkilməsi nəzərdə tutulmuşdur. Ümumilikdə, rayon üzrə 2018-ci il üçün əkilməsi nəzərdə tutulan pambıq bitkisi üçün 19 inzibati ərazi dairəsində 167 istehsalçı ilə 2600.0 hektar sahədə müqavilə bağlanmış, 2600.0 hektar sahədə şum çıxarılmışdır. Bütün torpaqlar suvarılan ərazilərdir. Şumlanmış ərazilər diskilənmiş, malalanmış 2600,0 ha sahədə çiyid səpini aparılmışdır. Çiyid səpilmiş sahələrdə çıxış alınmışdır.

2018-ci il üçün rayon üzrə pambıq əkilməsi nəzərdə tutulan 2600 ha sahədən 255.0 hektarı Ərəbmehdibəy kənd inzibati ərazi dairəsinin, 425.0 hektarı Çaparlı kənd inzibati ərazi dairəsinin, 350.0 Bozavant kənd inzibati ərazi dairəsinin, 172.0 hektarı Ərəbuşağı kənd inzibati ərazi dairəsinin, 150.0 hektarı Xəlilli kənd inzibati ərazi dairəsinin, 67.0 hektarı Gəgəli kənd inzibati ərazi dairəsinin, 80.0 hektarı Ərəbsarvan kənd inzibati ərazi dairəsinin, 332.0 hektarı Kəndoba kənd inzibati ərazi dairəsinin, 210.0 hektarı Qaraqoyunlu kənd inzibati ərazi dairəsinin, 35.0 hektarı Padar kənd inzibati ərazi dairəsinin, 13.0 hektar Növcü kənd inzibati ərazi dairəsinin, 10.0 hektarı Çiyni kənd inzibati ərazi dairəsinin, 40.0 hektarı Daşdəmirbəyli kənd inzibati ərazi dairəsinin, 261 hektarı Rəhimli kənd inzibati ərazi dairəsinin, 50 hektarı Muradlı kənd inzibati ərazi dairəsinin, 80 hektarı Bico kənd inzibati ərazi dairəsinin, 10 hektarı Qəşəd kənd inzibati ərazi dairəsinin, 50 hektarı Padarçöl kənd inzibati ərazi dairəsinin, 10 hektarı Ağsu şəhər kənd inzibati ərazi dairəsinin ərazisində yerləşir.

Kənd təsərrüfatının dövlət tərəfindən stimullaşdırılmasının əsas amili bəzi kənd təsərrüfatı məhsullarına, avadanlıq, texnika və texnologiyalara, materiallara və digər vasitələrə idxal və ixrac gömrük rüsumlarının ödənilməsində güzəştlərin tətbiq edilməsidir. Bu güzəştlər ölkəmizdə kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsində və istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm rol oynamaqla yanaşı, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və xarici bazarlara çıxarmaq imkanı yaradır.

Bütün bunlar onu göstərir ki, ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi dövlətin daim diqqət mərkəzindədir və respublikanın iqtisadi inkişaf səviyyəsinə uyğun dövlət büdcəsindən bu sahəyə subsidiyalar ayrılması və güzəştlər edilməsi səmərəli nəticələr verməkdədir. Pambıqçılığın inkişafı rayonumuzun sürətli inkişafı, əhali üçün yeni iş yerləri, təminatlı həyat, sabaha inam deməkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Bərdə şəhərində keçirilən pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində qeyd edildiyi kimi, "2016-cı ildən başlayaraq Azərbaycanda pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərilir və nəticələr də göz qabağındadır. Qısa müddət ərzində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik.

Pambıqçılıq əməktutumlu sahədir. Biz pambıqçılığın inkişafı ilə bağlı, eyni zamanda, on minlərlə yeni iş yeri yaratdıq. Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar. Əlbəttə ki, bu xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir. Mən əvvəlki çıxışlarımda da bunu qeyd etmişəm, bu gün də qeyd etmək istəyirəm, bizim üçün pambıqçılığın inkişafında əldə edilmiş nəticələr arasında məhz sosial amil ön plandadır. İş yerlərinin yaradılması əsas vəzifəmizdir, biz buna da nail ola bilmişik.

Eyni zamanda, pambıqçılıq çox gəlirli sahədir və yaxşı gəlir gətirir. Pambıqçılıq ixracyönümlü sahədir. İxrac üçün bazarları axtarmağa ehtiyac qalmır, birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir.

Biz qısa müddət ərzində rayonumuzda kompleks tədbirlər nəticəsində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik. İndi əsas vəzifə ondan ibarətdir ki, bu müsbət dinamikanı saxlayaraq pambıqçılığın gələcək inkişafı ilə bağlı əlavə addımlar ataq. Buna isə rayonumuzda nail olmaq üçün bütün qüvvələr səfərbər edilmişdir.

**Elxan ABDULLAYEV,**
**Ağsu Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi.**